**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA REGİONAL İQTİSADİYATIN SƏMƏRƏLİLİYİNİN İXTİSASLAŞMA ƏSASINDA ARTIRILMASI

İxtisas: 5304.01 – "İqtisadi fəaliyyət növləri"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Sərxan İsaq oğlu Məmmədov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublıkası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru
**Anar Fazil oğlu Abbasov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Habil Hüseyn oğlu Aslanov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Vüsalə Musa qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: ______________ AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ______________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ______________ iqtisad elmləri doktoru, professor vəzifəsini icra edən
**Möhübbət Musa oğlu Hüseynov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İstənilən cəmiyyətin inkişafında müəyyən ərazi və region amili mühüm rol oynayır. Bu, tarixən belə olmuş və indi də belədir. Onun müxtəlif aspektlərinin öyrənilməsi ilə coğrafiya, regionşünaslıq, demoqrafiya, sosiologiya və digər elm sahələri məşğul olurlar. Regional inkişafda sosial-iqtisadi problemlərin həlli daha mühüm və əhəmiyyətli hesab olunur. Bütövlükdə isə, dövlətin və cəmiyyətin iqtisadi inkişafı – regionların davamlı inkişaf səviyyəsi ilə sıx bağlı olub, onun səmərəli şəkildə həyata keçirilməsindən də asılıdır. Müşahidələr onu göstərir ki, iqtisadiyyatın dinamik şəkildə inkişafı, həm də onun sahə və ərazi kəsimlərində proporsional və səmərəli artımın təmin olunmasından asılıdır. Bu baxımdan, tədqiqat işinin mövzusu regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində, həmçinin iqtisadiyyatın ən mühüm və strateji əhəmiyyətli sahələrinin investisiya cəlbediciliyinin artırılmasında mühüm əhəmiyyət kəsb edən məsələlərin araşdırılmasına həsr edilmişdir.

Regional iqtisadiyyatda səmərəliliyin rolu və yerinin düzgün müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə mühüm iqtisadi kateqoriya hesab edilən səmərəlilik dedikdə, müəyyən vaxt ərzində (rüb, il, beşillik və s.) regional iqtisadiyyatın davamlı inkişafı istiqamətində müxtəlif hüquqi, təşkilati, sosial, iqtisadi, həmçinin digər analoji yönümlü tədbirlərin həyata keçirilməsi ilə əldə olunan nəticələrin səviyyəsi, olçüsü başa düşülür. Belə ki, səmərəlilik – hər bir regionun mövcud iqtisadi potensialından faydalı və düzgün istifadə səviyyəsini əks etdirməklə, yuxarıda göstərilənlərin keyfiyyət göstəricisi kimi, əldə olunan sosial və iqtisadi nəticələrin görülən çoxsaylı tədbirlərə nisbəti kimi müəyyən olunur.

Qeyd etmək lazımdır ki, səmərəlilik göstəricisi həm ümumi, həm də xüsusi göstəricilər kimi natura və dəyər şəklində əks olunur. Fikrimizcə, ümumi göstəricilər nəticə, xüsusi göstəricilər isə səbəb göstəriciləri kimi də əks oluna bilər. Eyni zamanda, səmərəliliyin yüksəldilməsinin mühüm şərtlərindən biri kimi, həmin göstəricilər arasında mövcud olan əlaqələr və onlara təsir göstərən müxtəlif elementlər çıxış edir.

Ölkə iqtisadiyyatının, o cümlədən regional iqtisadiyyatın

inkişafında əmək bölgüsünün mühüm forması olan ixtisaslaşma prosesi də mühüm rol oynayır. Hər bir region digərlərindən özünə məxsus olan bir çox xüsusiyyətləri ilə fərqlənir. Buraya mövcud təbii-iqlim şəraiti, iqtisadi fəaliyyətin növləri və əsas istiqamətləri, formalaşmış infrastruktur elementləri, mövcud əmək ehtiyatları və digərlərini aid etmək olar. Regionların, potensialı ilə ondan yerli xüsusiyyətlərə uyğun və məqsədyönlü şəkildə istifadə olunması, yerli resurs və ehtiyatlardan düzgün və kompleks istifadənin təmin edilməsi, innovasiya yönümlü texnologiya və avadanlıqların, digər mexanizmlərin tətbiqi ilə yüksək keyfiyyətli ixrac yönümlü məhsulların istehsal olunması, ayrı-ayrı regionların tarazlı və davamlı inkişaf etdirilməsinə uyğun optimal nisbətin yaradılması kimi bu və digər məsələləri buraya aid etmək mümkündür.

Araşdırmalar göstərir ki, ölkə iqtisadiyyatının regional xüsusiyyətlər baxımından tədqiq olunması prosesində, əsas etibarilə ona məhsuldar qüvvələrin inkişafı nöqteyi-nəzərdən daha çox diqqət yetirilmişdir. Regional inkişafın bazar iqtisadi münasibətləri sistemində yeni xüsusiyyətlərinin tədqiq olunması, yerli idarəetmə və izafi maliyyə resurslarının azaldığı şəraitdə regiondaxili resurslardan istifadəyə daha çox stimul verilməsinin təkmilləşdirilməsi istiqamətləri, bunlarla yanaşı daxili bazarın səmərəli qorunması metodları və xüsusiyyətlərinin müəyyən olunması tədqiqat nöqteyi-nəzərindən yenidir. Regionaların ixtisaslaşması, mövcud potensial imkanların təsərrüfat dövriyyəsinə cəlb edilməsi həm də həyata keçirilən dövlət proqram və layihələrindən irəli gələn zərurətdir. 2004-2023-cü illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları"nda, "Azərbaycan 2030: Sosial iqtisadi inkişafa dair Milli Prioritetlər"də, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda və s. proqram və layihələrdə regionların inkişafı, regional potensialdan səmərəli istifadə məsələləri, həmçinin 2022-ci ildə qəbul edilmiş "İşğaldan azad edilmiş ərazilərə qayıdış üzrə I Dövlət Proqramı" bu regionların inkişafı üzrə qarşıya qoyulan hədəflərə uyğun olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında bazar iqtisadiyyatının prinsiplərinə uyğun olaraq çevik idarəetmə strukturunun yaradılması, sahibakarlığın inkişafı üçün

münbit şəraitin təmin edilməsi, hər bir bölgənin iqtisadi resurslarına və inkişaf potensialına uyğun olaraq ixtisaslaşma əsasında regional inkişafın təmin edilməsi mühüm vəzifə kimi qarşıya qoyulur. Bu da təbiidir, çünki regionları inkişaf etdirmədən ümumi iqtisadi tərəqqiyə nail olmaq qeyri-mümkündür. Digər tərəfdən, ölkə əhalisinin zəruri ərzaq və qida məhsulları ilə təmin olunmasında, ayrı-ayrı regionların xüsusi çəkisi fərqli olsa da, ümumilikdə regionlar aparıcı paya malikdir. Bu isə o deməkdir ki, regional ixtisaslaşma yalnız iqtisadi tərəqqi və mövcud resurslardan səmərəli istifadə baxımından deyil, həm də insanların normal yaşayışı, əhalinin layiqli həyat səviyyəsinin təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Regional inkişafda ixtisaslaşmaya üstünülük verilməsi həm də dövlət başçısının çağırışlarından doğan bir reallıqdır. 2023-cü ilin ilk 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev qeyd edib ki, "*….biz gərək nəqliyyat dəhlizlərinin biznesə olan təsiri haqqında özümüz üçün konseptual qaydada bir araşdırma aparaq və özümüz üçün bir hədəf müəyyənləşdirək ki, biz nə istəyirik. Ölkə ərazisində Cənubdan Şimala və Şərqdən Qərbə gedən yollar demək olar ki, rayonlarımızın əksəriyyətini əhatə edir. Deməli, hər bir istiqamət üzrə spesifikaya görə, iqlimə görə, ixtisaslaşmaya görə xüsusi bir biznes imkanları olmalıdır. Hökumət üzvləri bu məsələ ilə bağlı öz təkliflərini hazırlasınlar*"[1].

Göründüyü kimi, dövlət başçısı da nəqliyyat dəhlizləri boyunca ixtisaslaşmanı önə çəkir və hökumətə bu istiqamətdə təkliflər hazırlanması ilə bağlı tapşırıq verir. Bu isə o deməkdir ki, tədqiqat işinin mövzusu və əhatə etdiyi məsələlər birbaşa Azərbaycan hökumətinin həyata keçiridiyi sosial-iqtisadi inkişaf siyasətinin prioritetlərinə aiddir. Bütün bunlar seçilmiş mövzunun aktual olduğunu və tədqiqatların günümüzün reallığından irəli gəldiyini ifadə edir.

Regional iqtisadiyyatın təbii-resurs ehtiyatlarının düzgün müəyyən edilməsi, onun mövcud potensialından məqsədyönlü şəkildə istifadə olunması, ixtisaslaşma əsasında səmərəliliyinin yüksəldilməsi, müxtəlif aspektləri həm yerli, həm də xarici ölkə alimlərinin bu yöndə apardıqları araşdırmalar və çoxsaylı elmi əsərlərdə əks olunmuşdur.

---

[1] https://president.az/az/articles/view/60430

Bu sahədə öz dəyərli tədqiqatları ilə seçilən Azərbaycan Respublikasının iqtisadçı alimləri A.A.Nadirov, Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, E.R.İbrahimov, E.A.Quliyev, B.X.Ataşov, İ.H.İbrahimov, T.N.Əliyev, İ.H.Alıyev, Ə.Q.Əlirzayev, Ə.C.Verdiyev, D.A.Məhərrəmov, Ə.C.Qasımov, A.E.Quliyeva, R.Ə.Balayev, M.C.Hüseynov, M.M.Hüseynov, E.Ə.İbrahimov, İ.M.Rzayev, T.A.Abbasov, A.Ə.Əliyev, N.V.Əlibəyov, X.M.Hüseynova və başqaları, xarici ölkə alimlərindən isə L.A.Nemenuşaya, P.N.Koşunov, L.V.Çayka, İ.N.Barıqin, A.Q.Qranberq, E.Q.Kovalenko, A.S.Novoselov, İ.A.Rodionova, N.Q.Kuznetsova, Q.T.Polyaka, T.Q.Morozovoy, V.V.Kistanov, A.S.Marşalova, E.A.Utkin, V.N.Çapek və başqaları qeyd olunan problemlərin həlli istiqamətində bir sıra dəyərli araşdırmalar aparmışlar.

Bununla yanaşı qeyd etmək lazımdır ki, iqtisadi potensialdan səmərəli istifadə edilməsi məsələlərinə müəyyən qədər baxılsa da, onun regional səviyyədə ixtisaslaşma meyllərinə uyğun səmərəliliyinin artırılması məsələlərinin tədqiq edilməsi hələ də yetərli və lazımi səviyyədə aparılmamış, buna uyğun konkret təkliflər işlənib hazırlanmamışdır. Göstərilənlər baxımından, regional şəraitə uyğun iqtisadiyyatın səmərəliliyinin ixtisaslaşma əsasında yüksəldilməsi məsələlərinin ətraflı tədqiq olunması böyük aktuallıq kəsb etməkdədir. Məhz buna görə də, bu mövzunun dissertasiya işi kimi seçilərək tədqiq olunması zərurət kəsb etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının regionları və onların mövcud iqtisadi potensialı təşkil edir.

Tədqiqatin predmeti kimi Azərbaycan Respublikasında regional iqtisadiyyatın səmərəliliyinin ixtisaslaşma əsasında artırılması məsələləri, qanunauyğunluqları, üsul və vasitələri seçilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi regional iqtisadiyyatın səmərəliliyinin ixtisaslaşma əsasında nəzəri-metodoloji əsaslarının ətraflı tədqiq edilməsi, mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi əsasında təkmilləşdirilməsi istiqamətlərinə dair elmi cəhətdən əsaslandırılmış təkliflərin və praktiki tövsiyələrin işlənib hazırlanmasıdır.

Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün aşağıdakı

vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun hesab edilmişdir:

- ölkə iqtisadiyyatının mühüm tərkib hissəsi hesab olunan regional iqtisadiyyatın mahiyyəti, elementlərinin araşdırılması, həmçinin regional iqtisadiyyatda səmərəliliyin düzgün təmin edilməsi yolları və formalaşması xüsusiyyətlərinin müəyyən edilməsi;
- regional iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində ixtisaslaşmanın rolu və bu istiqamətdə dövlət tənzimlənməsi sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərin əsaslandırılması;
- regionların sosial-iqtisadi inkişafının mövcud vzəiyyətinin təhlili və qiymətləndirilməsi;
- ekspert qiymətləndirməsi metodu əsasında regional inkişafın səmərəli fəaliyyətinə maneçilik göstərən amillərin qiymətlədirilməsi;
- regionlarda ixtisaslaşma meyllərinə uyğun sahibkarlıq fəaliyyətinin dayanıqlı inkişaf etdirilməsi yollarının tədqiq edilməsi;
- regional səviyyədə aqrar sahənin dayanıqlı inkişafının əsas istiqamətlərinin işlənib hazırlanması;
- regionlarda azad iqtisadi zonaların təşkili xüsusiyyətlərinin müəyyən olunması və s.

**Tədqiqatın metodları.** Tədqiqat işində induksiya, deduksiya, müqayisə, müşahidə, sistemli təhlil, ümumiləşdirmə, ekspert qiymətləndirməsi, statistik təhlil və digər metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- regionlarda yeni istehsal və iqtisadi münasibətlərin mövcud reallıqlar baxımından formalaşması və təkmilləşdirilməsi, həmçinin sağlam rəqabət mühitinin daha da sağlamlaşdırılmasına və mütərəqqi fəaliyyət sisteminin inkişafına ciddi stimul verən iqtisadi mexanizmlər hələ də təkmil deyildir;
- regionların iqtisadi inkişafı müqayisəli üstünlüklər və ixtisaslaşma prinsipləri əsasında təşkil edilməli, eyni zamanda spesifik xüsusiyyətləri düzgün müəyyən edilməklə, onlara uyğun sosial-iqtisadi inkişaf istiqamətləri və iqtisadi fəallığının genişləndirilməsi üçün əlverişli şəraitin yaradılması zəruridir;
- regionlar üzrə ixtisaslaşma prosesini həm dərinləşdirmək, həm də təkmilləşdirməklə, mövcud iqtisadi şəraitdən daha səmərəli istifadə edərək məhsul və xidmətlərin həcminin artırılması, xərclərin

səviyyəsinin aşağı salınması mümkündür və regionlarda sosial-iqtisadi inkişaf meyllərinin proqnozlaşdırılması ixtisaslaşma meyllərinə uyğun olaraq təşkil olunmamışdır;

- dövlətin sosial-iqtisadi proseslərin tənzimlənməsi siyasəti və regional siyasət tədbirlərinə kompleks və bütöv şəkildə yanaşılmalıdır;
- regionlarda dövlətə məxsus təbii resurslar və istehsal vasitələri üzərində səmərəli tənzimlənmə tədbirlərinin həyata keçirilməsi prosesi təkmilləşdirilməlidir və bu halda ixtisaslaşma xüsusiyyətləri önə çəkilməlidir;
- regionlarda dövlət tənzimlənməsinin birbaşa metodu kimi, müxtəlif iqtisadi–istehsal fəaliyyəti prosesində müəyyən dövlət sifarişlərinin həyata keçirilməsi intensivləşdirilməlidir;
- regionlarda və müxtəlif iqtisadi fəaliyyət sahələrində inhisarçılığın aradan qaldırılması və ədalətli rəqabət mühitinin təşəkkül tapmasına şəraitin yaradılması vacibdir;
- ölkəmizdə azad iqtisadi zonaların (AİZ) formalaşması və inkişafının regional xüsusiyyətləri əsasında sosial – iqtisadi inkişafın, xüsusən də qeyri-neft sektorunun daha da gücləndirilməsi və davamlı iqtisadi artım meyllərinin təmin olunmasında onların rolu getdikcə artırılmalıdır.

**Tədqiqatın elmi yeniliyi**. Yerinə yetirilmiş dissertasiya işi nəticəsində əldə edilən elmi yeniliklər aşağıdakılardan ibarətdir:

- bazar münasibətləri sistemində dünyada gedən yeni çağırışları nəzərə almaqla, regional iqtisadiyyatın mahiyyəti, məzmunu açıqlanmış, onun dövlət tənzimlənməsinin əsas istiqamətləri, dayanıqlı inkişaf sisteminin mahiyyəti üzrə elmi-nəzəri yanaşmalar sistemləşdirilmişdir;
- regional iqtisadiyyatın uğurlu inkişafı və səmərəliliyinin ixtisaslaşma əsasında artırılmasına uyğun olaraq, əsas və prioritet hədəflər əsaslandırılmış, səmərəliliyinin prinsipial cəhətləri və istiqamətləri müəyyən edilməklə onun keyfiyyət göstəricilərinin yüksəldilməsi yolları göstərilmişdir;
- ekspert qiymətləndirməsi metodu əsasında regional inkişafın səmərəli fəaliyyəti ilə əlaqəli olan amillərin təsiri qiymətlədirilmişdir;
- regional iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin davamlı yüksəldilməsi meyllərinə uyğun olaraq, ixtisaslaşma prosesində

klasterial inkişafın düzgün təşkili yolları müəyyən edilmişdir;

- regional iqtisadiyyatın davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi və ixtisaslaşma əsasında səmərəliliyinin artırılması, həmçinin regionlararası iqtisadi – təsərrüfat əlaqələrinin genişləndirilməsi istiqamətində müqayisəli üstünlüklərin müəyyən edilməsi metodikası işlənilib hazırlanmışdır;
- regional iqtisadi siyasətin düzgün aparılması istiqamətində mövcud potensialdan səmərəli istifadə yolları əsaslandırılmışdır və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində əldə edilmiş nəzəri yönümlü nəticələrdən müxtəlif ali məktəblərin regional iqtisadiyyat istiqamətli ixtisaslarının tədrisində, həmçinin müvafiq sahə üzrə gələcəkdə aparılacaq elmi araşdırmalarda istifadə oluna bilər. Dissertasiyada irəli sürülən nəzəri müddəalar və təcrübi tövsiyələr ali məktəblərdə iqtisadi yönümlü fənlərin tədrisində, ölkə regionlarının dayanıqlı inkişaf etdirilməsi istiqamətində həyata keçirilən dövlət proqramlarının uğurlu şəkildə icrasında, xüsusən də bu istiqamətdə həyata keçirilən mövcud iqtisadi siyasət mexanizmləri və metodlarının təkmilləşdirilməsində, bununla yanaşı regional iqtisadiyyatın müxtəlif sektorlarının inkişaf templərinin sürətləndirilməsi proseslərində faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işinin əsas məzmunu iddiaçının Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, beynəlxalq və respublika əhəmiyyətli elmi-praktik konfransların materiallarında dərc olunmuş 6 məqalə və 3 tezisdə (o cümlədən xaricdə 2 məqalə və 1 tezis) öz əksini tapmışdır. Çap olunmuş elmı əsərlərin sırasında “Regionlarda iqtisadi inkişafın təmin olunmasının əsas istiqamətləri” (Mingəçevir, 2019) və “Social-economicdevelopment policy of regions in the Azerbaijan republic realities and perspectives” (Dnepr, 2019) adlı tezisləri, “Müasir regional siyasətin səmərəli tənzimlənməsi məsələləri” (Mingəçevir, 2021) adlı konfrans materialını göstərmək olar.

Bundan əlavə, iddiaçının “Теоретико-методологические основы обеспечения эффективности региональной экономики” (Москва, 2016), “Regional iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində ixtisaslaşmanın rolu və yeri” (Bakı, 2017), “Создание особых экономических зон в Азербайджанской Республике и их

региональные особенности” (Санкт-Петербург, 2017), “Regional iqtisadiyyatda səmərəlilik anlayışı və onun təmin edilməsi istiqamətləri” (Bakı, 2017), “Regional inkişafın maliyyə təminatının yaxşılaşdırılması məsələlərinə dair” (Bakı, 2018), “Regionların sosial-iqtisadi inkişafının təkmilləşdirilməsi məsələləri” (Bakı, 2019) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 14644 işarə, I fəsil 65330 işarə, II fəsil 54750 işarə, III fəsil 52497 işarə, nəticə 15943 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 15531 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi 229292 işarədən ibarətdir. Qrafik, cədvəl, diaqram və istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla dissertasiya işinin həcmi 203614 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, onun nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin ümumi həcmi şərh olunmuşdur.

Dissertasiyanın **“Regional iqtisadiyyatın səmərəliliyinin təmin edilməsinin nəzəri-metodoloji əsasları” adlı birinci fəslində** ölkə iqtisadiyyatının mühüm tərkib hissəsi kimi regional iqtisadiyyatın mahiyyəti, əsas məzmun elementləri, regional iqtisadiyyatda səmərəlilik anlayışı və onun təmin edilməsi, regional iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində ixtisaslaşmanın rolu və s. məsələlər araşdırılmışdır. İlkin regional həlqənin təyini baxımından region dedikdə nisbətən eyni iqlimə, flora və faunaya, coğrafi mövqeyə malik olan, vahid istehsal, sosial və bazar infrastrukturu, eyni hökumət və özünüidarə orqanları tərəfindən idarə edilən ərazi bütovlüyü başa düşülür. Onun formalaşmasına çoxsaylı iqtisadi-təşkilati, sosial-psixoloji, siyasi-hüquqi və coğrafi faktorlar təsir edir. Rusiyalı

iqtisadçı-alim O.S.Suxarev yazır: *“Regional iqtisadiyyatın makroiqtisadi aspektləri və müəyyən dərəcədə ilk olaraq məkanın iqtisadi nəzəriyyəsi adlandırılan regional mikroiqtisadiyyat iqtisadi təhlilin tətbiq olunan istiqamətləri kimi formalaşmışdır. Regional makroiqtisadiyyat regional iqtisadi siyasət, mövcud resursların düzgün bölüşdürülməsi və ayrı-ayrı regionlarda iqtisadi aktivliyin, müxtəlif regionların qarşılıqlı fəaliyyəti məsələlərinin tədqiqinə istiqamətlənir. Bu yanaşma konkret bir dövlət çərçivəsində ciddi şəkildə müəyyən edilmiş sərhədləri olan iqtisadiyyata tətbiq olunan makroiqtisadi təhlili daha çox əks etdirir”*[2]. O.S.Suxarevin bu fikri ilə razılaşmaq olar ona görə ki, regional makroiqtisadiyyatın aspektlərinin hərtərəfli təhlili ölkədə iqtisadi artımı ləngidən problemlərin vaxtında aşkar edilməsinə və həlli yollarının axtarılıb tapılmasına imkan verir. Bu da son nəticədə regionlarda məskunlaşmış əhalinin məğşulluq səviyyəsinin yüksəldilməsi, işsizliyin azaldılması və s. bu kimi qlobal problemlərin həllində əsas vasitə rolunda çıxış edir.

Beləliklə, region anlayışına həm dünya təsərrüfatı çərçivəsində, həm də dövlətin ərazisi kimi yanaşılması məqsədə müvafiq hesab olunur və bu da sxem 1-də əks olunmuşdur. Sxemdən göründüyü kimi, region anlayışına beynəlxalq səviyyədə yanaşma dünya təsərrüfatı və geopolitik yanaşmanı əhatə edirsə, milli səviyyədə ərazi və təkrar istehsal baxımından yanaşmanı əhatə edir.




**Sxem 1. Regiona qlobal (beynəlxalq) və lokal (milli) səviyyədə yanaşma**

[2] Сухарев, О.С. Региональная экономическая политика: структурный подход и инструменты // Экономика региона, 2015, №2, с. 9-23

Burada başlıca olaraq regional idarəetmə orqanları ilə ümumdövlət hakimiyyətinin qarşılıqlı münasibətləri zəminində bütöv milli iqtisadiyyatın bir hissəsi kimi regional iqtisadiyyatın tənzimlənməsi funksiyası dayanır. Regional inkişaf nəzəriyyəsinin araşdırdığı problemlərin həlli regional siyasətin iqtisadi nəzəriyyə nöqteyi-nəzərindən yanaşmalarına uyğun olaraq aşağıdakı kimi verilə bilər: - zəif inkişaf etmiş regionlara dövlət və özəl investisiyalarının stimullaşdırılması yolu ilə regionlararası disbalansların dövlət tənzimlənməsini nəzərdə tutan regional inkişafa neokeyns yanaşma; - regional siyasətin formalaşmasına neoklassik yanaşma-regionların sərbəst qarşılıqlı əlaqədə olması, ticarətlə resurs mübadiləsini etmək, tənzimlənməyən bazar vasitəsilə mövcud fərqləri aradan qaldıra biləcəyini iddia edir; - münaqişələr nəticəsində yaranan siyasi və iqtisadi regional maraqların toqquşması məsələlərinə diqqət yetirən regionalizm nəzəriyyəsi; - bazarın qarşılıqlı təsirinin regional fərqləri artırdığını, bəzi regionların sərvətini və digərlərinin yoxsulluğunu möhkəmləndirdiyini irəli sürən balanssız artım nəzəriyyəsi; - regional iqtisadiyyatın inkişafına investisiya ilə proqramlaşdırıla bilən bir yanaşma mümkündür ki, bu da çox hallarda birinci yanaşmaya uyğun gəlir.

Təyin olunmuş sərhədlər, areallar çərçivəsində fəaliyyət göstərən region-bazarlar diqqət aksentini iqtisadi fəaliyyətin ümumi şərait və şərtlərinə, müqabil investisiya iqliminin yaradılmasına, geniş seqmentli lokal bazar quruculuğuna yönəldirlər. Bazar özünü tənzimini, dövlət reqlamentasiyasını və sosial nəzarəti ehtiva edən müvafiq regional sistemi çox zaman təlim fənni olaraq regional bazarçılıq da adlandırırlar.

Bununla yanaşı olaraq, regional iqtisadi nəzəriyyə və təlimlər sistemi inkişaf edərək digər ixtisaslaşmaları da əhatə edir.

Bir çox tədqiqatların nəticələri həmişə iqtisadi praktikada qavranılmır. Regionların ekoloji təhlükəsizliyinin və sosial-iqtisadi inkişafın səmərəli idarə edilməsində əsas məqsəd maliyyə resurslarının minimumlaşdırılması ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsini təcəssüm etməkdir. Burada səmərəli idarəetmədə faktiki nəticələr proqnozlarla tam uzlaşma tapmalı, qəbul edilən qərarlar optimallıq təşkil etməlidir.

Yuxarıdakı fikirlərdən göründüyü kimi, regionun mahiyyəti və onun iqtisadiyyatı ilə bağlı mövcud olan müxtəlif tədqiqatlarda, göstərilən proses başlıca olaraq iqtisadi münasibətlər sisteminin subyekti kimi, çoxsaylı təbii və insan resurslarının yerləşməsi, həmçinin məhsul və əmtəələrin istehsalı, istehlakı, və onlara xidmət göstərən müxtəlif infrastruktur elementlərinin cəmləşdiyi xüsusi iqtisadi fəaliyyət sahəsi kimi qeyd olunur.




**Şəkil 1. Regionun funksional strukturunun təsviri**

Şəkil 1-dən aydın olur ki, regionun funksional strukturu təbii iqtisadi, siyasi, resurs, turizm rekreasiya kimi əsas amillər, həmçinin istehsal, sosial, ekoloji və institutsional infrastruktur kimi və digər bazar infrastruktur alt elementlərindən ibarətdir.

Səmərəlilik – istehsal prosesini keçmiş iqtisadi nəticələrin həcmi və resursların miqdarının nisbətini, minimum xərclə həmin həcmdə nemət istehsalını səciyyələndirən anlayışdır. Bu baxımdan,

səmərəlilik dedikdə istehsal edilən iqtisadi nemətlərin həcmi və resursların miqdarının nisbətini, minimum xərclərlə həmin həcmə uyğun nemət istehsalını səciyyələndirən, həmçinin bu resurslarla daha yüksək həcmdə məhsul istehsalını özündə əks etdirən proses başa düşülür. Daha doğrusu, səmərəliliyin artması – ən az, minimal məsrəflərlə daha yüksək nəticələrə nail olunmasıdır. Müşahidələr onu göstərir ki, səmərə əsas etibarilə maddi istehsal sferasında formalaşsa da, səmərəlilik göstəricisi isə istehsal prosesinin son nəticəsi və yekunu kimi meydana çıxır. Ölkə iqtisadiyyatının, o cümlədən regional iqtisadiyyatın müxtəlif sahələrində səmərəlilik meyllərinin artımı məhz o zaman mümkün ola bilər ki, hər hansı bir məhsul (xidmət) vahidinə düşən vəsaitlərin həcmi getdikcə azalsın, eyni zamanda daha az xərclərlə daha çox məhsullar (xidmətlər) istehsalı təmin olunsun.

Göründüyü kimi, səmərəlilik anlayışı istənilən iqtisadi fəaliyyətin mühüm və hərəkətverici qüvvəsi hesab olunmaqla, böyük əhəmiyyət kəsb edir. O, iqtisadi məzmun və mahiyyət baxımından tam və geniş əhatəli bir anlayışdır. Belə ki, bu prosesin lazımi qaydada həyata keçirilməsi nəticəsində istehsal və xidmətlərin həcmi yüksəlir, iqtisadi artımın sürəti artır, bütövlükdə isə təkrar istehsal prosesinin miqyasları genişlənir. Məhz bu baxımdan, müxtəlif istehsal və xidmət sferalarında həm məhsul istehsalının, həm də yerinə yetirilmiş mövcud iş və xidmətlərin hansı dərəcədə səmərəli olub-olmamasının müəyyən olunması, həmçinin onun davamlı artımının sistematik və ardıcıl şəkildə təmin edilməsi istiqamətində iqtisadi səmərəliliyi özündə əks etdirən göstəricilər kompleksinin sistemləşdirilmiş şəkildə araşdırılması zərurət kəsb edir.

Region iqtisadiyyatının ixtisaslaşma nəticəsində daha səmərəli təşkili üçün regionun təbii üstünlüklərini nəzərə almaqla, həmçinin regionların sosial-iqtisadi, təbii imkanlarından maksimal səviyyədə istifadə olunması bazar iqtisadiyyatının tələblərinə, regionun bioloji məhsuldarlıq dərəcəsinə uyğun müasir idarəolunma prinsiplərinə müvafiq radikal mühitin formalaşdırılması zəruridir. Göründüyü kimi, iqtisadiyyatın, o cümlədən regional iqtisadiyyatın davamlı inkişafı və səmərəliliyinin yüksəldilməsində ixtisaslaşma prosesi mühüm rola malikdir və burada aşağıdakılar müəyyənləşdirilməlidir: regionun

sahələr üzrə ixtisaslaşması dərəcəsinin indeksi; ixtisaslaşmanın effektivlik indeksi (xərc vahidinə düşən regionları istehsal həcminin ölkədəki həmin göstəriciyə nisbəti); ixtisaslaşmanın ümumi indeksi (xüsusi göstəricilərin ümumiləşdirilmiş forması).

Dissertasiyanın **ikinci fəsli "Azərbaycanda regional iqtisadiyyatın səmərəliliyinin təmin olunmasının müasir vəziyyəti"** adlanır. Bu fəsildə regionların sosial-iqtisadi inkişafının mövcud durumu, regional iqtisadiyyatın səmərəli inkişafına təsir edən amillər təhlil olunmuş, regional iqtisadiyyatın dövlət tənzimlənməsi sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər yer almışdır.

Regional iqtisadi siyasətin əsas hədəflərindən biri bazar iqtisadi sisteminin mühüm keyfiyyət göstəricisi olan dövlət büdcəsinin yerli gəlirlərinin artırılmasını təmin etməkdən ibarətdir. Onların iqtisadi inkişafını miqyaslı etmək, mövcud təbii və əmək resurslarından tam və səmərəli istifadə etmək əsasında surətləndirmək məqsədilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dörd ardıcıl Dövlət Proqramı qəbul edilmiş və sonuncu uğurla həyata keçirilməkdədir. Lakin, elmi araşdırmalarımız göstərir ki, regional inkişafın miqyaslı olmasına baxmayaraq, əksər regional büdcələrin gəlirləri onların bütünlükdə iqtisadi inkişafına adekvat formalaşmır**.** Ölkəmizin qısa müddətdə əldə etdiyi iqtisadi uğurlar dəfələrlə Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və s. nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də təsdiq edilmiş, Azərbaycan ən islahatçı ölkə elan olunmuşdur. Bütün bunlarla yanaşı, mövcud imkanların araşdırılması, potensial ehtiyatların təhlili bu nəticəyə gəlməyə əsas verir ki, regionların mövcud potensialından tam və səmərəli istifadə hələlik təmin edilməmişdir.

Bu məqsədlə regional ehtiyatların aydınlaşdırılması, regionun iqtisadi xəritəsinin hazırlanması, hər bir region üzrə ensiklopedik məlumat bazasının formalaşdırılması məqsədəuyğun olardı. İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, hər hansı bir ölkənin, eləcə də onun ayrı-ayrı regionlarının potensial imkanlarını bilmədən, üstün cəhətlərini öyrənmədən, aparıcı istiqamətləri aşkara çıxarmadan lazımi inkişaf tempini təmin etmək qeyri-mümkündür.

Azərbaycan Respublikasının regionları üzrə həyata keçirilmiş məhsul istehsalının ümumi həcminin, eyni zamanda sənaye, kənd

təsərrüfatı, həmçinin istehlak xidmətləri və infrastruktur sahələri üzrə istehsal səviyyəsinin mövcud təhlili göstərir ki, iqtisadi rayonlarda sahələr üzrə müxtəlif fəaliyyət istiqamətlərinin davamlı inkişafı üçün böyük imkanlar hələ də kifayət qədərdir. Fikrimizcə, emal sənayesinin yüksək əmək və müəyyən fond tutumlu səviyyədə olması region əhalisinin işsizlik və səmərəli məşğulluq səviyyəsinin tam yaxşılaşdırılması, əhalinin yoxsulluq səviyyəsinin aşağı salınmasında da müstəsna əhəmiyyətə malikdir. Mövcud proqramların reallaşdırılması nəticəsində, ölkəmizin müxtəlif bölgələrində yeni sənaye, aqrar–sənaye və emal qurumları istifadəyə verilmişdir. Son illər Azərbaycan Respublikasında regionlar üzrə üzrə vətəndaşların nominal gəlirləri 57181500,2 min man., əsas iqtisadi sahələr üzrə məhsulun ümumi buraxılışı 105305,9 mln.manat, sənaye məhsulu 55229080,8 min man., kənd təsərrüfatı məhsulu 9163378,2 min man., pərakəndə ticarət dövriyyəsi 44217510,7 min manat, əsas kapitala yönəldilən vəsaitlər 16815459 min manat təşkil etmişdir.

Aparılmış təhlillər onu göstərir ki, son illər ölkənin iqtisadi rayonları üzrə əhalinin nominal gəlirləri, məhsulun ümumi buraxılışı, sənaye məhsulu, kənd təsərrüfatı məhsulunun həcmi, pərakəndə ticarət dövriyyəsi, əsas kapitala yönəldilmiş vəsaitlər artmışdır.

Ölkəmizdə regionlarda iqtisadi rayonlar üzrə milli iqtisadi sahələrə yönəldilən daxili investisiyaların həcminin təhlili onu göstərir ki, əgər 2010-cu ildə bu sahəyə yönələn daxili investisiyaların həcmi 7499,2 mln. manat olmuşdursa, 2022-ci ildə 14718,9 manat təşkil etmişdir (qrafik 1).

Son illər əksər iqtisadi göstəricilər üzrə mütləq üstünlük yenə də Bakı şəhərinin payına düşür. Sözsüz ki, bu prosesdə onun nəinki ölkəmizin, bütövlükdə Qafqazın ən böyük aqlomerasiyası kimi bütün nəqliyyat növlərinin qovşağında yerləşməsi, neft-qaz yataqlarının böyük gəlirləri, həmçinin mühüm mədəniyyət və idman mərkəzlərindən biri kimi bütün Avropada mühüm rola malik olması və digər amillər mühüm rol oynayırlar. Lakin aparılan araşdırmalar onu deməyə əsas verir ki, regional dövlət proqramlarının həyata keçirilməsi nəticəsində ölkəmizin regionlarında həmin ərazilərin özünəməxsus xüsusiyyətlərini əks etdirən müəyyən regional iqtisadi mərkəzlər formalaşmaqdadırlar. Diqqətəlayiq haldır ki, qeyri-neft




**Qrafik 1. Azərbaycan Respublikasının regionlarında milli iqtisadi sahələrə yönəldilən daxili investisiyalar (mln. manat)**

sektorunun əsas və mühüm bölmələri artıq Bakı şəhərindən kənarlaşmağa başlamışdır. Məsələn, Naxçıvan və Gəncə şəhərlərində avtomobil zavodları, eyni zamanda beynəlxalq aeroportlar (digər şəhərlərlə birlikdə), digər mühüm infrastruktur obyektlərinin (diaqnostika mərkəzləri, loqistik sistemlər və s.) mövcudluğu bunu deməyə əsas verir.

Qeyd etmək lazımdır ki, iqtisadi səmərəliliyi düzgün formada müəyyən etmək üçün, mövcud səmərəlilik göstəricilərinin obyektiv təhlil olunması və eyni zamanda onlara təsir göstərən çoxsaylı amillərin də düzgün müəyyən edilməsi vacib əhəmiyyət kəsb edir[3]. Çünki həmin amillərdən məqsədyönlü şəkildə istifadə olunması və bu istiqamətdə qabaqlayıcı və məqsədyönlü tədbirlərin görülməsi isə müasir bazar münasibətlərinin mühüm atributlarından birini təşkil edir.

Regional səmərəliliyə təsir edən amillərin tədqiqatı 3 iqtisadi region üçün aparılmışdır: 1) Mərkəzi aran; 2) Şəki-Zaqatala; 3) Şirvan-Salyan.

Ekpertlər arasında aparılmış sorğu nəticəsində müəyyən edilmişdir ki, regional iqtisadiyyatın səmərəliliyinə ən çox təsir edən amillər aşağıdakılardan ibarətdir:

---

[3] Чайка Л.В. Эффективность региональной экономики // Журнал Регионалистика. 2019, -№6, -с.117-125

- regionda mövcud infrastrukturun vəziyyəti ($X_1$);
- maliyyə vəsaitlərinə-kreditlərə əlçatanlıq ($X_2$);
- kiçik və orta biznesə dövət dəstəyi ($X_3$);
- istehsalın innovativlik səviyyəsi ($X_4$);
- biznesə müxtəlif qurumların əsassız müdaxiləsi ($X_5$);
- qeyri-mükəmməl rəqabət sistemin mövcudluğu ($X_6$);
- institutsional amillər ($X_7$);
- insan kapitalı ($X_8$).

Regionların iqtisadi inkişafının effektivliyii aşağıdakı formula ilə hesablanmışdır:

$$f = \sum_{i=1}^{n} n_i \ X_i$$

Burada, $n-$ regional iqyisadi inkişafa təsir edən i –ci göstəricinin ekspert rəyləri əsasında müəyyən edilmiş əhəmiyyətlik səviyyəsi(orta xüsusi çəkisi); $X_i$ - hər bir iqtisadi zona üçün i-ci göstəricinin ekspert tərəfindən verilmiş qiymətidir.

Təkif olunan metodika iqtisadi region üçün Mərkəzi Aran, Şəki-Zaqatala və Şirvan-Salyan iqtisadi rayonlar üçün sınaqdan keçirilmişdir. Mərkəzi Aran, Şəki-Zaqatala və Şirvan-Salyan iqtisadi rayonları üzrə aparılmış ekspert qiymətləndirmələrinin nəticələri aşağıdakı cədvədə verilmışdir (cədvəl 1).

**Cədvəl 1.**

**Bir sıra iqtisadi rayonlar üzrə aparılmış ekspert qiymətləndirilmələrinin nəticələri**

| Göstəricilər | Şirvan-Salyan | | | Şəki-Zaqatala | | | Mərkəzi Aran | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | $n_i$ | $X_i$ | $n_i X_i$ | $n_i$ | $X_i$ | $n_i X_i$ | $n_i$ | $X_i$ | $n_i X_i$ |
| $X_1$ | 0,117 | 5 | 0,585 | 0,117 | 4 | 0,468 | 0,117 | 3 | 0,351 |
| $X_2$ | 0,129 | 2 | 0,258 | 0,129 | 2 | 0.258 | 0,129 | 1 | 0,129 |
| $X_3$ | 0,108 | 3 | 0,324 | 0,108 | 3 | 0,324 | 0,108 | 2 | 0,216 |
| $X_4$ | 0,141 | 2 | 0,282 | 0,141 | 2 | 0,282 | 0,141 | 1 | 0,141 |
| $X_5$ | 0,127 | 3 | 0,381 | 0,127 | 1 | 0,127 | 0,127 | 2 | 0,254 |
| $X_6$ | 0,098 | 4 | 0,392 | 0,098 | 3 | 0,294 | 0,098 | 3 | 0,294 |
| $X_7$ | 0,119 | 1 | 0,119 | 0,119 | 2 | 0,238 | 0,119 | 2 | 0,238 |
| $X_8$ | 0,151 | 2 | 0,302 | 0,151 | 2 | 0,302 | 0,151 | 3 | 0,453 |
| **F=** | $\sum_{i=1}^{n} n_i X_i$ | | **2,643** | | | **2,293** | | | **2,076** |

Yuxarıda aparılmış tədqiqata əsasən, ekspert qiymətləndirməsinin nəticəsi olaraq tədqiq olunan regionlar üzrə iqtisadi inkişafın effektivlik göstəricisinin orta qiyməti 2,337–ə bərabər olmuşdur.Bu da tədqiq olunan regionlar üzrə üzrə ümumən effektivlik səviyyəsinin orta həddən aşağı olduğunu göstərir. Şirvan-Salyan rayonu üzrə üzrə bu göstərici 2,643 – orta səmərəli, Şəki-Zaqatala iqtisadi rayonu üzrə üzrə 2,293 – səmərəsiz və Mərkəzi Aran iqtisadi iqtisadi rayonu üzrə bu göstərici 2,076 – səmərəsiz olmuşdur. Araşdirmanın nəticəsi göstərir ki, Şirvan-Salyan iqtisadi rayonu üzrə iqtisadi inkişafın səviyyəsi orta səmərəli, Şəki-Zaqatala və Mərkəzi Aran iqtisadi iqtisadi rayonu üzrə iqtisadi inkişafın effektivlik səviyyəsi aşağı olmuşdur. Alınan nəticələri daha aydın təsvir etmək üçün aşağıdakı şəbəkə qrafikindən istifadə edilmişdir (qrafik 2).




**Qrafik 2. Regionların səmərəli iqtisadi inkişafına təsir edən amillər**

$$F_{orta} = (\ 2,643 + 2.293 + 2.076)/\ 3 = 2,337$$

Bu şəbəkə qrafikindəndən istifadə etməklə ayrı-ayrı iqtisadi rayonlar üzrə iqtisadi inkişafın effektivliyi və dayanıqlılığı üzrə tədqiqatın nəticələrinə əsasən elmi əsaslandırılmış təklif və tövsiyələr işləyib hazırlamaq mümkündür. Bu metodikanın üstün cəhəti ondan ibarətdir ki, onu istənilən iqtisadi rayona tətbiq etmək olar.

Regional iqtisadiyyatın dayanıqlı inkişafı istiqamətində dövlət tərəfindən həyata keçirilən sosial - iqtisadi siyasətin əsas məqsədi ölkə bölgələrinin mövcud potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun keyfiyyət yönümlü davamlı inkişafının əldə edilməsinə, istehsal təyinatlı müəssisələrin mövcud fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, sosial yönlü tədbirlərin ardıcıl şəkildə reallaşdırılması yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusən də burada yaşayan gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və bütövlükdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafının təmin edilməsinə nail olmaqdır.

Qeyd etmək yerinə düşər ki, regionların iqtisadi inkişafının dövlət tənzimlənməsi tədbirləri vahid nəzəri konsepsiyaya əsaslanmadığı üçün, hər bir konkret ölkəyə xas olan problemlərdən asılı olaraq fərqlənir. Bu zaman prinsipcə fərqli olan iki qrup tədbirləri - regionun ərazisinin xassələrini, məsələn, infrastrukturun (geniş mənada təsərrüfatçılıq şəraitinin sintetik göstəricisi kimi) təkmilləşdirilməsi və regiona gələn investorlara müxtəlif güzəştlərin və müəyyən imtiyazların verilməsini ayırmaq lazımdır. Xarici ölkələrin bu sahədə təcrübəsinə görə, mövcud regional iqtisadi siyasət mahiyyətcə regionun iqtisadi inkişafının dövlət tərəfindən elə tənzimlənməsini nəzərdə tutur ki, bu zaman cari büdcə xərclərində və ərazi fərqlərinin azaldılmasında büdcələrarası münasibətlər iştirak etmir. Dünya praktikasında regionların dövlət tənzimlənməsini iqtisadi siyasətin müstəqil istiqaməti kimi ayırmaq mümkün olmayan yeganə ölkə kimi İspaniyanı nümunə göstərmək olar.

Bu baxımdan, bazar iqtisadiyyatı dövlətin iqtisadi proseslərə birbaşa müdaxiləsini inkar etsə də, eyni zamanda tənzimləyici

funksiyaların rolunu daha da artırır. Başqa sözlə, artıq bazar münasibətləri şəraitində dövlətin tənzimləyici funksiyaları genişlənərək, milli iqtisadiyyatın ayrı-ayrı sahələrini və regional iqtisadiyyatı da əhatə edir. Ona görə də regional inkişafın dövlət tənzimlənməsinin daha səmərəli təşkil olunması və müvafiq təkmilləşdirmələrin aparılması çox mühüm əhəmiyyət kəsb edir. Hazırda regional siyasətin formalaşdırılması və regional inkişafın əsaslarının işlənib hazırlanması milli iqtisadiyyatın pozitiv və tarazlaşdırılmış inkişafını təmin etməyin başlıca istiqamətidir. Aparılan araşdırmalara görə, müxtəlif iqtisadi proseslərin regionların sosial–iqtisadi inkişafının tənzimlənməsində dövlətin iştirak dərəcəsi bütün ölkələrdə eyni şəraitdə deyildir. Dövlətin üzərinə düşən tənzimləmə funksiyalarını səmərəli şəkildə yerinə yetirə bilməsi üçün maddi imkanlara, müxtəlif vasitələrə və tənzimləmə sisteminə, həmçinin həmin sahədə lazımi təcrübəyə malik olması vacibdir.

Dövlətin bilavasitə həyata keçirdiyi tənzimləyici funksiyalar konkret obyektin tənzimlənməsinə yönəldilir. Tənzimlənmənin obyektləri isə çox genişdir və demək olar ki, sosial-iqtisadi həyatın bütün tərəflərini əhatə edir. Hətta təbiətin mühafizəsi, ekologiya ilə bağlı proseslər də tənzimlənmə obyektinə daxildir. Deməli, xarici iqtisadi münasibətlərə də dövlətin zəruri həcmdə müdaxiləsinin əhəmiyyəti çox böyükdür. Bütövlükdə ölkə iqtisadiyyatı, regionların sosial-iqtisadi inkişafı problemləri, gəlirlərin bölgüsü və yenidən bölgüsü, iri həcmli investisiya qoyuluşları, maliyyə münasibətləri və s. ilə bağlı olan çoxsaylı hadisələr, proseslər dövlətin tənzimləmə obyekti ola bilər. Dövlət tənzimlənməsinin obyektləri ilə yanaşı, subyektləri də mövcuddur ki, onlar mülkiyyət münasibətləri və əmlak mənsubiyyətinə, özlərinin gəlirləri və digər elementlərin səviyyəsinə görə bir-birindən xeyli dərəcədə fərqlənirlər. Burada istifadə edilən metodlar, üsul və vasitələr çoxdur. İdarəetmə metodları öz məzmununa, idarəetmə obyektinə, təsiretmə xarakterinə, təşkilati formalarına görə müxtəlif olub, bir-birindən fərqlənirlər. İqtisadi idarəetmə prosesində iqtisadi, sosial-psixoloji, inzibati-təşkilati, hüquqi, mənəvi-tərbiyəvi metodlardan istifadə olunur.

Dissertasiyanın **üçüncü fəsli “Azərbaycanda regional iqtisadiyyatın səmərəliliyinin ixtisaslaşma əsasında yüksəldilməsi**

**yolları"** adlanır. Bu fəsildə regionlarda ixtisaslaşma meyllərinə uyğun sahibkarlığın dayanıqlı inkişaf etdirilməsi istiqamətləri, regionlarda aqrar sahənin dayanıqlı inkişaf etdirilməsi yolları, regionlarda azad iqtisadi zonaların təşkilinin prioritetləri tədqiq olunmuşdur.

Əvvəlki fəsillərdə göstərildiyi kimi, səmərəli bazar münasibətləri yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasının dayanıqlı inkişafı ölkə regionlarının sosial-iqtisadi inkişafının səviyyəsindən çox asılıdır. Regional iqtisadiyyatda sahibkarlıq fəaliyyətinin təşəkkül tapması və normal inkişaf etdirilməsi amillərinə çoxsaylı hüquqi amilləri, iqtisadi amilləri, texnoloji amilləri, institusional amilləri (bank sisteminin inkişafı, informasiya təminatı və s.), təbii-demoqrafik amilləri (iqlim, torpaqların növü, xammal bazasının vəziyyəti, əhalinin sayı, tərkibi), sosial-mədəni amilləri (təhsil səviyyəsi, dini baxışlar, mənəvi-əxlaqi normalar) və siyasi amilləri (siyasi institutların mövcudluğu və s.) aid edə bilərik.

Sahibkarlıq fəaliyyətinin inkişafının regional problemləri və əsas istiqamətləri göstərilən regionun mövcud resurslarından, həmçinin onun əsas tələbat sisteminin ən səmərəli ödənilməsi yolları və xüsusiyyətlərindən asılıdır[4].

Aparılan təhlillərə görə, sahibkarlıq fəaliyyətinin regional quruluşu, həmçinin iqtisadi fəaliyyət növləri üzrə istehsal-iqtisadi əlaqələrin təşəkkül tapdığı təqdirdə, onun ərazi idarəetmə obyekti kimi ümumi daxili məhsulun strukturunda xüsusi çəkisi artır və regionların inkişafında daxili resursların rolu yüksəlir. Bununla yanaşı, hüquqi şəxs yaratmadan fiziki şəxs statuslu sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara lazımi stimulun yaradılması, onlara müxtəlif maliyyə yardımlarının göstərilməsi, müxtəlif növ kreditlərin verilməsi və həyata keçirilən maliyyə-vergi siyasətində regional diferensiasiyaların nəzərə alınması, onların normal təsərrüfat fəaliyyətinin gəlirlə yekunlaşmasında mühüm rol oynayır.

Sahibkarlıq subyektləri içərisində mikro, kiçik və orta sahibkarlıq (KOS) qurumları mühüm çəkiyə malikdirlər. Xüsusən də regional

---

[4] Abasova, S. Azərbaycanda sahibkarlığın inkişafı üçün əlverişli investisiya mühütü / Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı (respublika elmi praktiki konfransı) Bakı: Avropa, 2010, s.65-67

şəraitdə bu subyektlər daha üstünlük təşkil edirlər. Belə ki, işçilərinin sayı az, dövriyyə və maliyyə vəsaitləri kiçik həcmli olduğu üçün onların təşkili daha rahat başa gəlir. Bunu isə aşağıdakı cədvəldən müşahidə edə bilərik (cədvəl 2)

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü (01.01.2022)**

| Göstəricilər | Cəmi | Mikro | Kiçik | Orta |
|---|---|---|---|---|
| Respublika üzrə | 355906 | 346171 | 6856 | 2879 |
| Bakı ş. | 174286 | 167655 | 4788 | 1843 |
| Abşeron-Xızı iqtisadi rayonu | 32477 | 31804 | 478 | 195 |
| Gəncə-Daşkəsən iqtis. rayonu | 17078 | 16825 | 167 | 86 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 16955 | 16675 | 183 | 97 |
| Lənkəran-Astara iqtis. rayonu | 19938 | 19704 | 164 | 70 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 12462 | 12248 | 136 | 78 |
| Mərkəzi Aran iqtisadi rayonu | 15702 | 15434 | 178 | 90 |
| Qarabağ iqtisadi rayonu | 13679 | 13498 | 129 | 52 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 7518 | 7405 | 76 | 37 |
| Naxçıvan MR | 8357 | 8064 | 173 | 120 |
| Qazax-Tovuz iqtisadi rayonu | 14354 | 14155 | 129 | 70 |
| Mil-Muğan iqtisadi rayonu | 10422 | 10253 | 112 | 57 |
| Şərqi-Zəngəzur iqtisadi rayonu | 1587 | 1537 | 38 | 12 |
| Şirvan-Salyan iqtisadi rayonu | 11091 | 10914 | 105 | 72 |

Aparılmış təhlil onu göstərir ki, ölkə üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərində işləyənlərin sayı 01.01.2022-ci ildə 355906 olmuşdursa, onun da 346171 nəfəri mikro, 6856 nəfəri kiçik, 2879 nəfəri orta sahibkarlıq subyektlərinin payına düşmüşdür. Bakı şəhəri üzrə bu göstərici 174286 nəfər olmuşdur ki, onun da 167655 nəfəri mikro, 4788 nəfəri kiçik, 1843 nəfəri orta sahibkarlıq subyektlərinin payına düşmüşdür. Bundan başqa Abşeron-Xızı iqtisadi rayonu üzrə 327477 nəfər, Naxçıvan Muxtar Respublikası üzrə 8357 nəfər, Qarabağ iqtisadi rayonu üzrə 13679 nəfər, Şərqi-Zəngəzur iqtisadi rayonu üzrə isə 1587 nəfər olmuşdur. Aparılmış təhlil göstərir ki, son illərdə ölkəmizin iqtisadi rayonlarında mikro, kiçik və orta sahibkarlıq subyektlərində işləyənlərin sayı artmaqdadır.

Bunun da əsas səbəbi regionlar üzrə bu tip özəl müəssisələrin sayının artması hesab olunur. Sahibkarlıq sahəsində mövcud iqtisadi göstəricilər əsas etibarilə regionların xeyrinə dəyişsə də Bakı şəhəri ilə regionlar arasındakı böyük fərqlərin aradan qaldırılması üçün xeyli vaxt və məqsədyönlü yanaşma tələb olunur.

Ölkə iqtisadiyyatının, xüsusən də qeyri-neft sektorunun ən mühüm, prioritet əhəmiyyət kəsb edən sahələrindən biri olan aqrar sahənin dayanıqlı şəkildə inkişaf etdirilməsi böyük əhəmiyyət daşıyır. Lakin, regional inkişaf nöqteyi-nəzərdən həmin proses, bu gün xüsusi aktuallıq kəsb edir. Ölkə regionlarının böyük əksəriyyətinin iqtisadiyyatında əsas kənd təsərrüfatı bölmələri olan bitkiçilik və heyvandarlığın inkişaf istiqamətləri geniş və rəngarəngdir. Əsrarəngiz təbii-iqlim şəraiti olan ölkəmizin aqrar iqtisadiyyatı sahələrində bütün məhsulları yetişdirmək mümkündür. Keçən əsrin 90-cı illərinin ortalarında ölkəmizdə aqrar islahatlar aparılaraq, kənd təsərrüfatı təyinatlı torpaqlar xüsusi mülkiyyətə verildi. Bu isə məhsul istehsalçılarına istənilən məhsulları becərmək üçün geniş imkanlar yaratmışdır.

Azərbaycan Respublikasında təsərrüfat kateqoriyaları üzrə aqrar sektorun ümumi məhsulu üzrə göstəricilərin təhlili göstərir ki, ölkədə 2018-ci ildə 7010 mlyn. manat ümumi məhsul istehsalı həyata keçirilmişdirsə, 2022-ci ildə bu göstərici artaraq 10984,2 mlyn. manat olmuşdur (qrafik 3).

Azərbaycanın regionlarında aqrar sahənin inkişafı sahəsində aparılan səmərəli tədbirlər nəticəsində bu sahədə iqtisadi göstəricilər üzrə davamlı artım qeydə alınmışdır. Ölkədə aqrar sahə üzrə fəaliyyət göstərən sahibkarların əldə etdiyi gəlirlər də yüksəlmişdir. Kənd təsərrüfatı sahəsi üzrə sahibkarlıq subyektlərinin xarici ölkələr üzrə ixrac imkanları, regionlarda vətəndaşların aqrar sahə üzrə məşğulluq səviyyəsi də artmışdır.

Regionların inkişafında aqrar sahənin fəaliyyəti, ərzaq təhlükəsizliyinin təmin olunması zəruridir. Regionlarda ərzaq təhlükəsizliyinin təmin edilməsi ölkə əhalisinin etibarlı ərzaq və kənd təsərrüfatı məhsulları üzrə təminatında əsas şərtdir. Bundan başqa aqrar sahənin inkişafı, ərzaq təhlükəsizliyinin təmini iqtisadi davamlılığın təmin edilməsinə ciddi təsir edir.




**Qrafik 3. Ölkəmizdə son illər üzrə kənd təsərrüfatı məhsullarının istehsal həcmi üzrə dəyişən dinamika (milyon manatla)**

*Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Müşahidə və təhlillər göstərir ki, hazırkı durumda ölkə iqtisadiyyatında, o cümlədən regional iqtisadiyyatda modern aqrar münasibətlərin formalaşması və inkişaf etdirilməsi son dərəcə əhəmiyyətlidir. Fikrimizcə, bu zaman idxal olunan məhsulların yerli istehsal sahələri ilə əvəz olunmasına daha çox üstünlük verilməsi, həmin fəaliyyətlə məşğul olan KOS subyektlərinə geniş maliyyə yardımlarının göstərilməsi, həmçinin lizinq, sığorta, informasiya xidmətləri şəbəkəsinin formalaşdırılması sahəsində zəruri tədbirlər siyahısının daha da genişləndirilməsi, aqrobiznes sistemində rəqabət mühitinin gücləndirilməsi və s. məqsədyönlü tədbirlərin görülməsini zəruri edir.

Araşdırmalar göstərir ki, işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin, turizmin, sənayenin və bütövlükdə, sahibkarlığın inkişafı üçün böyük imkanlar mövcuddur. Bu imkanlaradan maksimum səmərəli istifadəsinə dair bu fəsildə iddiaçı tərəfindən dəyərli təkliflər verilmişdir.

Bu fəsildə belə bir nəticəyə gəlinmişdir ki, Azad İqtisadi Zonaların (AİZ) yaradılması Azərbaycan regionlarının ixtisaslaşmasını aktivləşdirə və bu əsasda isə istehsalın səmərəliliyinin artırılmasına əsaslı təkan vermiş olardı. Bu baxımdan Azərbaycanda azad iqtisadi zona yaradılmasında xüsusən sərhədyanı regionlar üzrə əsas istiqamətlərdən biri Rusiya Federasiyasının Dağıstan Respublikasının sərhəddində, Qazax rayonu üzrə Gürcüstan Respublikası ilə Qırmızı Körpü adlanan məkanda və Naxcıvan MR-da İran və Sədərək sərhədində sərbəst belə zonanın yaradılmasıdır. Dağıstan Respublikası ilə bir çox sahələrdə sazişlər hazırlanmış, əlaqələr genişlənmişdir. Azad İqtisadi Zona üzrə Azərbaycan təcrübəsi (Ələt Azad İqtisadi zonasının fəaliyyəti) göstərir ki, bu qurumlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılmaqla onun fəaliyyətinə birbaşa nəzarəti həyata keçirəcək. Bu cür AİZ-in yaradılması investisiya fəaliyyətinin aktivləşməsinə, məşulluğa və ümumilikdə, iqtisadiyyatın inkişafına böyük təkan vermiş olur. Məlumdur ki, iqtisadi zonalar sürətli iqtisadi islahatların aparılması yolu ilə beynəlxalq təsərrüfatçılıq sisteminə sıx qovuşmağı qarşısına məqsəd qoyan ölkələr qarşısında mühüm və modern iqtisadi element kimi çıxış edir. Bununla yanaşı, o, ölkədaxili müəyyən regionların daha sürətlə inkişaf etməsinə təkan verərək, xarici maliyyə - investisiya axınlarının bura cəlb olunmasına şərait yaradır.

Dissertasiyanın **"Nəticə"** bölməsində regionların sosial-iqtisadi inkişafının və ixtisaslaşma əsasında səmərəliliyinin artırılmasına imkan verə biləcək metodiki və əməli xarakterli təklif və tövsiyələr yer almışdır. Onların bir qismini xülasə edirik:

1. Regional iqtisadiyyatın mövcud strukturunun çoxaspektli, o cümlədən təbii – resurs, iqtisadi, sosial, mənəvi, institusional, təşkilati, idarəetmə, futuroloji və digər çoxsaylı istiqamətləri baxımından geniş şəkildə və kompleks tədqiqi həyata keçirilməlidir.

2. Regional iqtisadiyyatda səmərəlilik anlayışı və onun təmin edilməsi yollarının araşdırılması da mühüm əhəmiyyət kəsb edir. Belə ki, iqtisadi səmərəlilik anlayışı xüsusi bir kateqoriya kimi mühüm iqtisadi məzmuna malikdir və onun yüksəldilməsi məsələləri böyük məzmuna malikdir.

3. Təbii ki, regional iqtisadiyyatda səmərəlilik meyllərinin

yüksəldilməsi prosesində ixtisaslaşma prosesinin rolu və əhəmiyyəti də yüksəkdir. İxtisaslaşma meyllərinin sürətləndirilməsi və nəzərdə tutulmuş parametrlər səviyyəsində inkişafına uyğun olaraq, aşağıda göstərilən tədbirlərin həyata keçirilməsini təklif edirik: -regional ixtisaslaşmanın potensial imkanlarının müəyyən edilməsi və strateji planlaşdırılmasının məqsədyönlü şəkildə reallaşdırılması; -regionlarda ixtisaslaşma meyllərinə uyğun olaraq, sosial–iqtisadi inkişaf meyillərinin proqnozlaşdırılması.

4. Regional iqtisadiyyatın dövlət tənzimlənməsi sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər göstərir ki, bu istiqamətdə atılan addımlarla yanaşı, aşağıdakı tədbirlərin həyata keçirilməsi də məqdədəuyğundur:-regional şəraitdə sosial-iqtisadi inkişafın məqsədyönlü və dövlətin maraqlarına uyğun şəkildə tənzimlənməsi;-regionlar arası mövcud disproporsiya hallarının aradan qaldırılmasına yönəldilmiş məqsədyönlü tədbirlərin davam etdirilməsi; -regionlarda dövlətə məxsus təbii resurslar və istehsal vasitələri üzərində səmərəli tənzimlənmə tədbirlərinin həyata keçirilməsi.

5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafın mövcud durumunun təhlilindən göründüyü kimi, bu sahədə həyata keçirilən tədbirlər daha çox aqrar–sənaye, turizm və bölgə əhalisinin məşğulluq səviyyəsinə müsbət təsir göstərən digər sahələrin sürətli inkişafını tələb edir.

6. Regionlarda ixtisaslaşma meyllərinə uyğun sahibkarlıq fəaliyyətinin dayanıqlı inkişaf etdirilməsi – müasir şəraitdə mühüm aktuallıq kəsb edən məsələlərdən biri hesab olunur. Göstərilən istiqamətdə isə aşağıdakı tədbirlərin aparılmasını məqsədəuyğun hesab edirik: -regionlarda yeni iş yerlərini yaradılması və iqtisadi potensialın gücləndirilməsi baxımından mövcud sahibkarlıq fəaliyyətinin stimullaşdırıcı və sürətli inkişaf etdirilməsi; -müxtəlif iqtisadi fəaliyyət sahələrinin inhisarçılq buxovlarından azad edilməsi və ədalətli şəkildə rəqabət mühitinin təşəkkül tapmasına şəraitin yaradılması.

7. Regional iqtisadiyyatın ən mühüm və prioritet sahələrindən biri hesab edilən aqrar sahənin dayanıqlı inkişaf etdirilməsi istiqamətində çoxsaylı tədbirlərin görülməsi, xüsusən də keyfiyyət yönümlü və modernləşmə xarakterli tədbirlərin davam etdirilməsi məqsədəuyğundur.

8. Araşdırmalar göstərir ki, işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin, turizmin, sənayenin və bütövlükdə, sahibkarlığın inkişafı üçün böyük imkanlar mövcuddur.

9. Fikrimizcə, Azad İqtisadi Zonaların (AİZ) genişləndirilməsi Azərbaycan regionlarının ixtisaslaşmasını aktivləşdirə və bu əsasda istehsalın səmərəliliyinin artırılmasına əsaslı təkan vermiş olardı. Bu cür AİZ-in yaradılması investisiya fəaliyyətinin aktivləşməsinə, məşulluğa və ümumilikdə, iqtisadiyyatın inkişafına böyük dəstək vermiş olar.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin dərc edilimiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Георетико-методологическис основы обеспечения эффективности региональной экономии. // – Москва: Экономика и предпринимательство. – 2016, №7. – с.238-241
2. Regional iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində ixtisaslaşmanın rolu və yeri. // – Bakı: “Kooperasiya”, – 2017, №1(44). – s.12-16
3. Создание особых экономических зон в Азербайлжанской Республике и их региональные особенности. // – Санкт-Петербург: “Глобальный научный потенциал”. – 2017, №2(71). – с.52-55
4. Regional iqtisadiyyatda səmərəlilik anlayışı va onun təmin edilməsi istiqamətləri. // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat institutu. Elmi Əsərlər. – 2017, №1. – s.284-288.
5. Regional inkişafın maliyyə təminatının yaxşılaşdırılması məsələlərinə dair. // – Bakı: “Kooperasiya”, –2018, №2(49). – s.215-223.
6. Regionların sosial-iqtisadi inkişafının təkmilləşdirilməsi məsələləri. // – Bakı: AMEA-nın Xəbərləri İqtisadiyyat elmlər seriyası. – 2019, №2. – s.81-86.
7. Regionlarda iqtisadi inkişafın təmin olunmasının əsas istiqamətləri. // “Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə

müasir yanaşmalar”. Respublika elmi konfransının materialları, – Mingəçevir: MDU. – 2019, – s.386-388.

8. Social-economic development policy of regions in the Azerbaijan rupublic realities and prespectives. // Международна науково-практична конференция. – Днепр: – 2019. 14 декабр, – с.7-10.

9. Müasir regional siyasətin səmərəli tənzimlənməsi məsələləri. // AR TN, MDU Azərbaycan xalqının Ümummill lideri H.Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr olunmuş "Vətən müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" elmi-nəzər konfransın materialları. – Mingəçevir: MDU, – 2021. 4 may, – s.205-207.



Dissertasiyanın müdafiəsi 25 sentyabr 2024-cü il tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Biznes Universitetinin Birgə dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 24 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.08.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 45634 işarə

Tiraj: 100